**SƏBA NAMAZOVA**
**filologiya üzrə fəlsəfə doktoru**
**Gəncə Dövlət Universiteti**
**seba8080@mail.ru**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN PUBLİSİSTİKASI

**Açar sözlər:** Cümhuriyyət, publisistik yazı, ədəbi-bədii fikir, mətbuat, jurnal
**Ключевые слова:** Республика, публицистический очерк, литературно-художественная мысль, пресса, журнал
**Key words:** Republic, publicistic essay, literary and artistic thought, press, magazine

Cəmiyyətin həyatında irəliləyişə zəmin olan, ədəbi prosesi sürətləndirən önəmli faktorlardan biri də təbii ki, mətbuatdır. Ölkədə ictimai, siyasi, bədii fikrin formalaşmasında zaman-zaman mətbuat mühüm rol oynamış, onun əsl məramı milli düşüncəni istiqamətləndirməkdən ibarət olmuşdur.

Mətbuat ümummilli mədəniyyətin tərkib hissəsi kimi xalqın dünyagörüşünü, həyata baxışlarını, sosial-ictimai, mədəni proseslərə münasibəti özündə ehtiva edir. Mətbuatın cəmiyyətin ayrı-ayrı sferalarına güclü təsirinin nəticəsidir ki, o, dördüncü hakimiyyət kimi dəyərləndirilir.

XIX əsrin ortalarından etibarən dünyada baş verən ictimai-siyasi proseslər, onun ardınca XX əsrin əvvəllərinin qaynar siyasi mühiti, Rusiya imperiyasının daxilində və onun ucqarlarında yaşanan çoxsaylı hadisələr xalqların həyatında milli mənəvi oyanış meyillərinin geniş şəkildə intişar tapmasına səbəb olmuşdur. Bu ictimai-mədəni proseslər Azərbaycandan da yan keçməmiş, əksinə, daha geniş arealda özünü büruzə vermişdir. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Səid və Cəlal Ünsizadə qardaşları, Məhəmməd ağa Şahtaxtlı, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu və başqa fikir nəhəngləri, milli ziyalılar xalqın mövcudluğunu qorumaq uğrunda mübarizə meydanına çıxdılar.

Məlumdur ki, zamanın sosial, siyasi faktorları bir yaradıcılıq sahəsi kimi publisistikanın bilavasitə önə çəkilməsini şərtləndirirdi. Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da nəzərəçarpacaq rolu xüsusi qeyd edilməlidir. Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin siyasi fəaliyyətlərinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri olduğu şəksizdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin görkəmli publisist Üzeyir bəy Hacıbəyli tərəfindən nəşr edilməsi ictimai-

siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğuna ən bariz nümunədir.

Qeyd edək ki, dövrün publisistika nümunələri əsasən "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Açıq söz", "Övraqi-nəfisə", "Qurtuluş" və s. mətbuat orqanlarında dərc olunurdu. Millətin gələcək taleyi uğrunda mübarizəyə çağırış ruhu ilə seçilən publisistik yazılar Ə.Topçubaşov, Ə.Ağaoğlu, C.Hacıbəyli, N.Nərimanov, M.Məhəmmədzadə və başqa istedadlı qələm sahiblərinin yazılarında müzakirə mövzusuna çevrilmiş, onlar milli zəmində baş verən qırğınlarla əlaqədar bir sıra qəzet və jurnallarda silsilə məqalələr dərc etdirmişdilər.

1918-ci ilin 31 martınadək Azərbaycanda 15-ə qədər anadilli qəzet və jurnal çap olunmuşdu. Həmin dövrədək bütövlükdə nəşr olunmuş mətbu orqanların sayı 80-dən artıq idi.

İlk milli qəzetimiz olan "Əkinçi"nin nəşrindən 1918-ci ilin mayına qədərki zamanda 40 adda qəzet çıxmasına rəğmən, Azərbaycan Xalq Cümhuriyyəti dövründə onların sayı 200-ə yüksəlmişdi. Bu, hər şeydən əvvəl, demokratik dövlət quruculuğu, fikir azadlığının təmini istiqamətində aparılan uğurlu siyasətin nəticəsi idi. Digər önəmli faktor isə Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin əksəriyyətinin yaradıcılığı etibarilə jurnalist olmalarından mətbuatla bilavasitə bağlılıqlarından qaynaqlanırdı.

Dövrün mətbu nümunələrində xalqı düşündürən son dərəcə ciddi problemlərə yüksək həssaslıqla yanaşılır, zamanın axarında həllivacib olan məsələlərə daha çox publisistik yazılarda yer ayrılır, suverenlik, azadlıq, türkçülük ideyaları təbliğ edilirdi.

Bu baxımdan "Açıq söz" qəzetinin 4 yanvar 1918-ci il tarixli sayında da ilk dəfə Cümhuriyyətçilik fikirləri irəli sürülərək dövlətin təməl prinsipləri elan edilmişdi. Elə "Türkləşmək, islamlaşmaq və müasirləşmək" şüarının müdafiəsinə yönəlmiş fikirlər də bu qəzetin səhifələrində səsləndirilmişdi.

Azərbaycan tarixində böyük ictimai-siyasi hadisələrin baş verməsi ilə xarakterizə olunan həmin dönəmdə "İstiqlal Bəyannaməsi" elan edildi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu dünyaya bəyan olundu.

Siyasi həyatda son dərəcə ciddi problemlərin yaşandığı zamanda Bakı bolşevik-daşnak qüvvələrin nəzarətində idi. Stepan Şaumyanın rəhbərliyi altında Bakı Xalq Komissarları Sovetinin qvardiyası Bakı, Şamaxı, Quba, Salyan, Kürdəmir kimi əraziləri dağıdaraq Gəncəyə doğru üz tutmuşdu. Həmçinin, Zəngəzuru işğal etmiş və Qarabağa hücumlara başlayan mənfur Andranik Gəncəni ələ keçirmək üçün də plan hazırlayırdı.

O dövrdə Azərbaycan və Türkiyənin hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu formalaşdırıldı və istiqlaliyyət uğrunda savaşlara başlanıldı.

Maraqlıdır ki, həmin vaxtlarda, yəni 1918-ci ilin yayında Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın siyasi müşaviri kimi Azərbaycana gəlmiş Əhməd bəy Ağaoğlu məhz Gəncədə "Türk sözü" adlı qəzeti nəşr etdirmiş [5, 76], hərbi əməliyyatlar şəraitində, ələlxüsus da maddi imkansızlıq üzündən bir-iki sayı çıxdıqdan sonra qəzet nəşrini dayandırmışdı.

Tiflisdən Gəncəyə köçürülən Milli Hökumət mətbəə işinin təşkilini də diqqətdə saxlamış və vaxtilə orada fəaliyyət göstərmiş bir sıra anadilli qəzetlərin nəşrini həyata keçirən mətbəələrin də Gəncəyə gətirilməsi qərarına gəlmişdi. Hətta, 1918-ci il sentyabrın 15-də Bakının azad olunması xəbərini də Gəncədə iki dildə nəşr olunmuş "Azərbaycan" qəzeti vermişdir.

"Azərbaycan" qəzetinin Gəncədə həftədə iki dəfə olmaqla dörd sayı işıq üzü görmüş, ilk sayı "Heyəti-idarə" imzası ilə çap edilmişdi. Qəzetin bu şəhərdə sonuncu sayı 1918-ci il sentyabrın 15-də nəşr edilmişdi. Dörd səhifə şəklində çıxan qəzetin dördüncü sayının 3 səhifəsi rus, bir səhifəsi isə Azərbaycan dilində idi.

"Azərbaycan" qəzetinin ilk nömrələrindəki yazıların hazırlanmasında, ümumən qəzetin nəşrinə davam edərək maddi çətinlikləri qismən də olsa aradan qaldırmasında Üzeyir və Ceyhun Hacıbəyli qardaşlarının, Şəfi bəy Rüstəmbəylinin xidmətləri xüsusi qeyd edilməlidir.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin Bakıda nəşr olunan ilk saylarında Qarabağda gedən uğurlu hərbi əməliyyatlarla bağlı xəbərlər, həmçinin bu məzmunda məqalələr də dərc olunurdu. Bakı nəşri dövründə qəzet ətrafına yeni yaradıcı qüvvələri cəlb etdi, onunla əməkdaşlıq etmək istəyən yazarların sayı durmadan artmağa başladı.

XX əsr ədəbi-bədii fikrinin ən tanınmış nümayəndələri "Azərbaycan" qəzeti ilə müntəzəm yaradıcılıq əlaqəsində olmuşlar. O sırada Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Əhməd Cavad, Əliabbas Müznib, Seyid Hüseyn, Əmin Abid, Əliyusif Rai, Əli Şövqi, Yusif Vəzir Çəmənzəminli və başqa görkəmli publisistlərin adlarını qürurla qeyd edə bilərik.

Qəzetə ayrı-ayrı vaxtlarda Üzeyir və Ceyhun Hacıbəylilər, Xəlil İbrahim, Şəfi bəy Rüstəmbəyli redaktorluq etmişlər. 1919-cu ildə Parisdə Versal Sülh Konfransında iştirak məqsədilə nümayəndə heyətinə üzv olan Ceyhun Hacıbəyli həmin səfərlə bağlı qəzetin 9 yanvar tarixli sayında belə yazmışdır:

"Vətən və millət uğrunda əlimdən gələni, xidməti və öhdəmə düşən vəzifəni qəzetimizin müdiri sifətilə ifadə məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşür. Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım

olduğuna görə qəzetə idarəsindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli hüsn ifasından asılı olaraq məsul vəzifəmiz haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kəlami-sidq və səmimiyyətlə xudahafiz deməyi özümə fərz bildim” [3].

“Azərbaycan” qəzetinin redaktorlarından olmuş Üzeyir Hacıbəylinin mətbu orqanın səhifələrində ölkənin ictimai-siyasi həyatına, istiqlalın qorunması uğrunda mübarizələrə, xain ermənilərin Qarabağda xalqımıza qarşı törətdikləri vəhşiliklərə dair xeyli sayda yazıları dərc edilmişdi.

Ümumən “Azərbaycan” qəzetinin mövzu dairəsi olduqca geniş idi. Burada Azərbaycanın bir suveren ölkə kimi ictimai-siyasi, mənəvi maraqlarını qorumaq yolunda apardığı mübarizəni əks etdirən çeşidli yazılara daha çox yer ayrılırdı. Bakı xəbərləri, baş məqalələr və rəsmi əmrlər, teleqraf xəbərləri, məhəllələrdən məktublar və məqalələr, mətbuat, teatr və musiqi, Qafqaziya xəbərləri və s. rubrikalar altında yazılar qəzetdə dərc olunmuşdu. Mətbu orqanın təkcə Bakıda deyil, bölgələrdə də müxbirləri fəaliyyət göstərirdilər. Bu isə baş verən hər bir ictimai-siyasi hadisəyə operativ münasibət bildirilməsinə şərait yaradırdı. Qəzetin nəşri dövründə bütövlükdə 522 sayı işıq üzü görmüşdür. Beynəlxalq aləmdə baş verən hadisələrin şərhinə, onlara dair obyektiv informasiyalara ətraflı yer verən qəzet dövlət orqanı olduğu üçün rəsmi sənədlərin nəşrini də proqramına daxil etmişdi.

Üzeyir Hacıbəyli Azərbaycanın suverenliyinə qarşı çıxan yeni qurulmuş dövlətin varlığına qəsd etmək istəyən qüvvələrə qarşı fikirlərini vaxtilə belə ifadə etmişdir:

“Gözlər var ki, dünənə qədər əsir və qul olan milləti bu gün azad və sərbəst görmək istəmirlər. Qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb da söz söyləməsini eşitmək istəmirlər. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər” [2].

Görkəmli publisist Yusif Vəzir Çəmənzəminli “Açıq söz” qəzetinin 20 noyabr 1917-ci il tarixli sayında dərc olunmuş məqaləsində türk millətinə hərarətlə müraciət ünvanlamışdı:

“Ey nəcib türk milləti, ayıl! Bu rəşadətli balalarını yad et. Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdandığın kifayət edər. Ayılın, toplaşın! Rusiyanın siyasi həyatı yeni bir dairəyə girir. Rusiyada yaşayan millətlər üçün tarix yeni bir səhifə hazırlayır” [1].

Məhəmməd Əmin Rəsulzadə “İstiqlal” qəzetinin 31 may 1919-cu il tarixli sayında yer almış “Həşəmətli bir gün” adlı məqaləsində Azərbaycanın

istiqlalına qovuşduğu şanlı günlərə işarə edərək bütün varlığını bürümüş sevinc duyğularını qələmin dili bu cür çatdırmışdı:

“Bakı tarixinin bəlkə də bu ana qədər qeyd eləmədiyi bu böyük gündə bir çoxları kəndi-kəndinə:

- Əcəba, bu, uyğumudur?! – deyirdilər.

Əvət; bu, Azərbaycan tarixinin ən böyük həqiqətini təşkil edən gün o qədər xariqüləadə idi ki, uyğuya bənzəyirdi.

Fəqət bu həqiqəti bundan iki sənə əvvəl mayısın 28-ində şənliklər yapan xalq bugünkü kibi təsəvvür və xəyal etməmişdisə də, Azərbaycan şüarını ortaya atan firqəmiz istiqbalda böylə bir günə malik olacağımızı, heç şübhəsiz ki, təsəvvür eyləmişdi.

Müsavatçılar üçün bu gün ikili bayramdır: milli bayram, fikri bayram!” [4]

Əhməd Həmdi isə “Müstəqil Azərbaycan”ın 14 yanvar 1920-ci il tarixli sayında dərc olunmuş rəsmi bayram adlı yazısında Azərbaycan istiqlaliyyətinin dünyada qəbul və təsdiqindən doğan şadlıq hisslərini dilə gətirmişdi:

“Azərbaycan istiqlaliyyətinin ANTANTA tərəfindən qəbul və təsdiqi münasibətilə bu gün çəharşənbə – Yanvarın 14-ü rəsmi bayram elan edilmişdir.

Teleqraf və telefonlar ilə bütün Azrbaycana bu günün rəsmi bayram elan edildiyi xəbər verilmişdir” [6].

Göründüyü kimi, istər Azərbaycan Xalq Cümhuriyyətinə qədərki, istərsə də onun mövcudluğu dövründə görkəmli publisistlərimiz istiqlalın əldə olunması və möhkəmləndirilməsi yolunda fəal şəkildə mübarizə aparmış, bu istiqamətdə səylərini durmadan genişləndirmişlər. Məhəmməd Əmin Rəsulzadə, Üzeyir və Ceyhun Hacıbəylilər, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn və başqalarının təmsil olunduğu dövrün publisistikası mövcud ictimai-siyasi hadisələrə çevik və operativ müdaxiləsi ilə də diqqəti cəlb edirdi.

## Ədəbiyyat

1. “Açıq söz” qəz., 20 noyabr 1917
2. “Azərbaycan” qəz., 1918, № 56
3. “Azərbaycan” qəz., 9 yanvar 1919
4. “İstiqlal” qəz., 31 may 1919
5. Məhəmmədzadə M. Azərbaycan türk mətbuatı. Ərəb əlifbasından çevirib tərtib edən, ön söz, lüğət və qeydlərin müəllifi: filologiya elmləri

doktoru Alxan Bayram oğlu Məmmədov. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004, 84 səh.
6. “Müstəqil Azərbaycan”qəz., 14 yanvar 1920

**С.Намазова**

## Публицистика периода Азербайджанской Демократической Республики
## Резюме

Публицистика периода Республики отличалась широтой и разнообразием тематики. В таких печатных органах как «Азербайджан», «Истиглал», «Иттихад», «Эль», «Догру йол», «Миллет», «Мектеб», «Тюрк сёзу», «Басират», «Ачыг сёз», «Овраги-нафисе», «Гуртулуш» и др. публиковались многочисленные статьи, влияющие на общественное мнение.

Публицистическое творчество У.Гаджибейли, М.А.Расулзаде, М.Шахтахлы, Ю.В.Чеменземенли, С.Гусейна, М.Рафизаде и других было новым по форме и содержанию, отражало важнейшие события времени.

С этой точки зрения можно сказать, что в 1918-1920-х годах в сфере идеологической борьбы Азербайджана периодическая печать стояла в передних рядах, национальная публицистика обогащалась тематически и идеологически, в различных статьях смело затрагивались судьбоносные вопросы относительно будущего народа. По этому поводу приходит к месту мысль о том, что «Пресса стала одним из сильнейших факторов в процессе социокультурного возрождения и прогресса азербайджанского тюркизма». Пресса в период Азербайджанской Демократической Республики сыграла важную роль в формировании общественно-политической и литературно-художественной мысли, посредством публицистики указала народу правильный путь.

**S.Namazova**

## Publicism of the Azerbaijan Democratic Republic's period
## Summary

Publicism of the Republic period differed in breadth and variety of topics. Numerous articles affecting public opinion had been published in such newspapers as "Azerbaijan", "Istiglal", "Ittihad", "El", "Doghru yol", "Millet", "Mekteb", "Turk sozu", "Basirat", "Achig soz", "Ovragi-nafise","Gurtulush" and others.

Reflecting the most important events of the time, U.Hajibeyli, M.A. Rasulzade, M.Shakhtakhly, Yu.V.Czemenzelili, S.Huseyn, M.Rafizade and others' publicistic creativity were new in form and content.

From this point of view, it can be said that the periodical press was in the front ranks of Azerbaijan's ideological struggle in 1918-1920s, national publicism was enriched thematically and ideologically, and the fateful questions about the future of the people were boldly raised in various articles. On this occasion, the idea comes to the point that "The press has become one of the strongest factors in the process of social and cultural revival and progress of Azerbaijani Turkism". During the period of the Azerbaijan Democratic Republic the press played an important role in shaping sociopolitical and literary-artistic thought, and by means of publicism showed the people the right way.

**Rəyçi: Asif Rüstəmli**
**Filologiya elmləri doktoru, professor**